# MSŞA İctimai Birliklər Koalisiyasının fəaliyyətinə dəstək məqsədilə ACİ-YF tərəfindən maliyyələşdirilən 14221 saylı qrant layihəsinin yerinə yetirilməsi haqqında aralıq proqram

# Hesabatı

Qrant layihəsində MSŞA İctimai Birliklər Koalisiyasının fəaliyyətinə 2007-ci ildə dəstək məqsədilə cəmi 102,000 (yüz iki min) ABŞ dolları məbləğində vəsaitin ayrılması nəzərdə tutulub. Həmin vəsait Koalisiyanın proqram, vəkillik və instutsional fəaliyyət xərclərini əhatə edir. Vəsaitin hesaba köçürülmüş hissəsi qrant layihəsi büdcəsinə uyğun olaraq sərf edilmiş və 31 avqust 2007-ci il tarixədək aşağıdakı işlər yerinə yetirilmişdir:

## I. Proqram fəaliyyəti üzrə

- MHŞT üzrə 5 və 6-cı hesabat və auditor şirkətinin rəyləri təhlil edilib, çatışmamazlıqlar, qeyri- müəyyənliklər və narahatlıq doğuran digər məsələlər haqıında Koalisiyanın xüsusi rəyləri açıqlanıb;
- Keçirilən mətbuat konfransında jurnalistlərə Koalisiyanın 5-cı hesabatla bağlı rəyi təqdim edilib və pres- reliz yayılıb;
- Mədən sənayesində şəffaflığın artırılması məqsədilə müvafiq siyasət yazılarının hazırlanması üçün müsabiqə elan edilib və keçirilib. Nəzərdə tutulan 10 siyasət yazısının 5-nin hazırlanmasına başlanılıb, digər 5-ni hazırlamaq üçün təkrar müsabiqə elan edilib;
- *Neft Fondunun idarəçiliyində olan maliyyə vəsaitlərinin yerləşdirilməsi, investisiyalara yönəldilməsi siyasətinin izlənilməsi, təhlil edilməsi və hesabatın hazırlanması* istiqaməti üzrə fəaliyyəti Iqtisadi və Sosial İnkişaf Mərkəzi (İSİM- rəhbəri Vüqar Bayramovdur) həyata keçirir. Təşkilat artıq tədqiqatlarını yekunlaşdırmaq üzrədir. Tədqiqatın yekunu olaraq hesabat Azərbaycan və ingilis dillərində hazırlanmış və son dizayn işləri yekunlaşır. Bu isitiqamət çərçivəsində aşağıdakı fəaliyyətlər həyata keçirilmişdir:
    a. Layihə çərçivəsində dövlət nümayəndələri, o cümlədən Dövlət Neft Fondunun icraçı direktoru Şahmar Mövsümov və fondun başqa əməkdaşları ilə görüşlər həyata keçirilmişdir. Görüşlərdə tədqiqatın daha uğurla aparılması üçün fikir mübadiləsi aparılmışdır.
    b. Tədqiqatın yekunlarını müzakirə etmək üçün Milli Məclisin vitse-spikeri Valeh Ələskərovla görüş keçirilmişdir. Görüşdə tədqiqat nəticəsində irəli sürülən təkliflərin tədqiqi imkanları müzakirə edilmişdir.
    c. Dövlət Neft Fondunun fəaliyyəti ilə bağlı məlumatlar əldə edilmişdir və həmin məlumatların işlənməsi həyata keçirilmişdir.
    d. Xarici ölkələrin təcrübəsinin öyrənilməsi istiqamətindən işlər davam etdirilmişdir. Bu zaman Norveç və Qazaxıstan modelinə xüsusi diqqət ayrılmış və həmin nümunələrdən istifadə imkanları tədqiq edilmişdir.
    e. Xarici ekspertlər ilə müzakirələr davam etdirilmişdir. Xüsusən Minnopolis və Vaşinqton Universitetlərinin professorları ilə müzakirələrdə tədqiqatın təkliflər hissəsi ilə bağlı fikir mübadiləsi aparılmışdır. Xarici ekspertlərin fikirləri nəzərə alınaraq təkliflər paketinin təkmilləşdirilməsi aparılmışdır.

f. Layihənin icrası ilə bağlı respublika mətbuatında məlumatların çapı davam etdirilmişdir. “525-ci qəzet” qəzetdə və “Mediaforumda” layihənin icraçıları ilə müsahibələr verilmişdir.
g. Sentyabrın sonuncu həftəsində tədqiqatın ekspertlər ilə müzakirəsi həyata keçirilib. Müzakirələrə yalnız koalisiya üzvləri deyil, həmçinin kənar ekspertlər də cəlb ediliblər. Fəaliyyət planına uyğun olaraq tədqiqat başa çatdırılmaq üzrədir.

- *ARDNŞ-in maliyyə axınlarının izlənilməsi, təhlili və onun şəffaflığının qiymətləndirilməsi* istiqaməti üzrə məsul şəxs Koalisiya üzvü Zöhrab İsmayılovdur. Bu istiqamət üzrə işlər may ayından başlanıb və aşağıdakı işlər görülüb:

1.Təhlil üçün lazım olan sənədlər toplanıb. Toplanmış sənədlər aşağıdakılardır:

- ARDNŞ-nin Nizamnaməsi;
- 2005-ci il ARDNŞ-nin fəaliyyəti üzrə illik hesabat;
- 2006-ci il ARDNŞ-nin fəaliyyəti üzrə illik hesabat;
- 2005-ci ilin yekunlarına dair Nazirlər Kabinetinin hesabatı;
- 2006-cı ilin yekunlarına dair Nazirlər Kabinetinin hesabatı;
- 2005-ci il dövlət büdcəsinin icrasına dair hökumətin hesabatı;
- 2006-cı il dövlət büdcəsinin icrasına dair hökumətin hesabatı;
- 2005-ci il dövlət büdcəsinin icrası ilə bağlı Hesablama Palatasının rəyi;
- 2006-cı il dövlət büdcəsinin icrası ilə bağlı Hesablama Palatasının rəyi;
- MSŞT üzrə iyun Bakı konfransında ARDNŞ-nin iqtisadi məsələlər üzrə vitse-prezidenti Suleyman Qasımovun təqdimatı;
- MSŞT üzrə 2005 və 2006-cı illər üzrə illik hesabatlar və analoji auditor rəyləri;
- Sair sənədlər.

2.Əldə edilmiş sənədlər təhlil edilib. Təhlil ARDNŞ-nin maliyyə axınlarının hər bir mərhələdə şəffaflığının və hesabatlılığın nə dərəcədə təmin edilməsi baxımından aparılıb. Təhlil prosesində şirkətin neft istehsalı, nəqli, xam neftin sistem daxilində satışı, neft məhsullarının istehsalı və ölkə daxilində satışı, xam neftin və neft məhsullarının ixracı, təbii qazın nəqli və ölkə daxilində satışı, xam neftin və təbii qazın istehsalı, habelə neft məhsullarının istehsalı zamanı maliyyə vəsaitlərinin hərəkəti müəyyən edilib. Eyni zamanda şirkətin yardımçı təsərrüfatlarının, enerji təsərrüfatının xərcləri və sair gəlirləri üzrə məlumatlar toplanıb. Bundan başqa təhlildə hər bir mərhələdə çəkilən xərclər və əldə edilən gəlirlərin həcminin müəyyən edilməsi məqsədi qarşıya qoyulub. Məlumatların bir çoxu hesabatlardan əldə edilib və ya dolayı hesablamalar yolu ilə tapılıb. Bununla belə, şirkətin cavablandırması üçün “İnformasiya əldə edilməsi” haqqında qanuna müvafiq olaraq 24 sualdan ibarət informasiya sorğusu göndərilib. Suallar şirkətin gəlirləri, xərcləri və qarşılıqlı borcları, habelə kredit öhdəliklərinin əhatə edir.

3.Təhlilin nəticəsində xülasə hazırlanıb. Xülasə A4 formatında 15 səhifədən ibarətdir.

4.ARDNŞ-nin maliyyə axınlarının izlənməsi və şəffaflığın qiymətləndirilməsi üzrə indiqatorlar hazırlanıb.

5. 24 sentyabr 2007-ci il tarixdə ARDNŞ-nin maliyyə axınları və şəffaflıq mövzusunda dəyirmi masa keçirilib. Dəyirmi masada dövlət qurumlarının, beynəlxalq maliyyə institututlarının, QHT-lərin, KİV-lərin, diplomatik korpusun nümayəndələri iştirak ediblər.

6.Yekun konfrans keçirilib. Yekun konfransda yuxarıda adları çıkilən tərəflərdə əlavə ARDNŞ-nin də nümayəndəsi iştirak edib. Tədbirdə xülasə və indiqatorlardan ibarət materiallar paylanılıb, layihənin nəzticələri barədə təqdimat edilib və müzakirələr aparılıb. Yekun Konfrans və layihənin nəticələri barədə 10-dan artıq KİV-də geniş material yer alıb.

- *Mədən sənayesində şəfaflığın artırılması və gəlirlərin səmərəli idarə edilməsi məqsədilə "Neft gəlirlərinin idarə edilməsi haqqında" qanun layihəsinin və aidiyyatı olan mövcud qanunvericilik aktlarının təkmilləşdirilməsinə dair müvafiq təkliflərin hazırlanması* istiqaməti üzrə məsul şəxs Koalisiya üzvü Məhəmməd Talıblıdır. Fəaliyyəti həyata keçirmək üçün işçi qrup yaradılıb. Sənədi hazırlayan işçi qrup ayrı-ayrılıqda ilk əvvəl Azərbaycan Respublikası Dövlət Neft Fondunun hansı hüquqi aktlarla idarə olunmasına dair sənədlərlə, o cümlədən başqa ölkələrdə olan təbii ehtiyatlar Fondlarının qanunverici bazası ilə tanış olmaq qərarına gəldi. Sonra Azərbaycanda bu istiqamətdə mühüm proqramlar həyata keçirmiş Neft və İnformasiya Sənayesi üzrə Təlim və Resurs Mərkəzinin rəhbəri Himayət Rizvanqızı ilə bir neçə dəfə müzakirələr aparıldı. Həmin müzakirələrin isə istər problemə yanaşma tərzinin yaranması, istərsə də geniş tədqiqat materialları ilə tanış olmaq baxımından xeyli faydası oldu. Sonrakı tədqiqatlar zamanı həmin materiallar işçi qrup üçün əhəmiyyətli qaynaq rolunu oynadı və qrup həmin sənədləri hazırlanan təkliflərin ədəbiyyat siyahısına da daxil etdi. Sənədlərlə tanış olan qrup üzvləri sonradan Fondun qanunverici bazasının müxtəlif istiqamətləri üzrə iş bölgüsünün həyata keçirilməsini qərara aldı. Bundan sonra mövcud qanunvericilik aktlarının ekspertizası zamanı müxtəlif hüquqi boşluqlar müəyyənləşdirildi və ayrı-ayrı istiqamətlər üzrə ilkin variantın birgə müzakirəsi aparılıdı. Ortaya çıxan tənqidi məqamlar qeyd olunmaqla, həmin istiqamətlər üzrə alternativ təkliflərin hazırlanması da qərara alındı. Beləliklə ortaya çıxacaq sənədin ilkin variantı hazırlandı ve elektron formada həmin sənəd ətrafında fikir mübadiləsi aparıldı.Bu yazışmalar isə sənəddə əlavə və düzəlişlərin edilməsini zəruri etdi. Bu isə sənədin daha da mükəmməl alınması baxımından çox əhəmiyyətli oldu. Daha sonra işçi qrup bu sənədi neft sənayesi sahəsində müxtəlif tədqiqatlar aparmış təcrübəli və hazırlıqlı Koalisiya üzvləri ilə müzakirəsini təşkil etdi. İcraçıların təklif etdiyi layihə vəzifələrinə uyğun olaraq layihə haqqında ictimaiyyəti məlumatlandırmaq məqsədi ilə mətbuata, o cümlədən "Azadlıq" qəzetində layihənin əlaqələndiricisi Məhəmməd Talıblı proqramın məqsədi və mahiyyəti haqqında geniş şərh vermişdir. Fəaliyyət Planına uyğun olaraq layihənin beşinci ayında təkliflərin ictimai müzakirəsi planlaşdırıldı. Təbii ki, bu da təkliflərin daha da səmərəli olması üçün vacib idi. İşçi qrup bundan əlavə beynəlxalq qurumlarla, o cümlədən Dünya Bankının rəhbərliyi ilə hazırladığı "Neft Gəlirlərinin idarə edilməsi haqqında" qanun layihəsinin və aidiyyatı olan

mövcud qanunvericilik aktlarının təkmilləşdirilməsinə dair sənəd hazır olandan sonra birgə müzakirəsini də qərarlaşdırıb. Bu görüşün isə oktyabr ayının birinci ongünlüyündə keçirilməsi nəzərdə tutulur və bu haqda artıq birgə razılaşma da var. Qeyd edilməlidir ki, bu istiqamətdə layihənin məsləhətçisi Sabit Bağırovun çox gərəkli fəaliyyəti olub.

**II. Vəkillik fəaliyyəti üzrə:**

- *TV-də tok- şouların təşkili* istiqaməti üzrə məsul şəxs Koalisiya üzvü Aydın Nəsibovdur. Neft gəlirlərinin şəffaflığı mövzusunda İctimai TV-də 2 tok- şou təşkil edilib. Həmin verilişdə Koalisiya üzvləri və ekspertləri fəal iştirak ediblər.
- *Beynəlxalq əlaqələrin təşkili* üzrə məsul şəxs Koalisiya üzvü İnqilab Əhmədovdur. Keçən dövr ərzində əsasən neft gəlirlərinin şəffaflığı və bütövlükdə MSŞT prosesində vətəndaş cəmiyyəti təmsilçisi kimi ictimai birliklərin və müvafiq koalisiyaların regional əməkdaşlığının inkişaf etdirilməsi istiqamətində fəaliyyət həyata keçirilib. Eyni zamanda beynəlxalq tərəfdaşlarla da daimi əlaqələr saxlanılıb, İnqilab Əhmədov email yazışmalarda, konferenc telefon danışıqlarında iştirak edərək Koalisiyanın müzakirə edilən məsələr haqqında mövqeyini çatdırıb;
- *Mətbuat Xidmətinin işi* istiqaməti üzrə məsul şəxs Ramil Qasımzadədir. Mətbuat Xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə əlaqədar Koalisiyaya üzv olan media təşkilatlarının rəhbərləri və jurnalistlərlə görüş keçirilb. "İnformasiyanın idarə edilməsi qaydaları" hazırlanıb və "Qaydalar" Koalisiya Şurasında təsdiq edilib. Mətbuat Xidməti tərəfindən Koalisiyanın fəaliyyəti haqqında məlumatların KİV-lərə çatdırılması, pres- relizlərin hazırlanması və yayılması təmin edilir. Hazırda demək olar ki, bütün tanınmış KİV-lərlə əlaqələr qurulub, Mətbuat Xidmətinin vebsaytda xüsusi bölməsi yaradılıb.
- *Gənclərin MHŞT proseslərinə cəlb edilməsi* istiqaməti üzrə məsul şəxs Asəf Mikayılovdur. Bu istiqamətdə fəaliyyəti həyata keçirmək üçün Oğuz, Bərdə, Tovuz və Şamaxı rayonlarında seminarlar keçirilib. Seminar iştirakçılarına MSŞA Koalisiyası tərəfindən hazırlanmış "Pilot ölkələrin təcrübəsi" adlı beynəlxalq konfrans toplusu, cib təqvimləri, üzərində MSŞA Koalisiyasının, loqosu olan yazı kitabçaları və qələmlər paylanmışdır. Bundan əlavə MSŞA Koalisiyası tərəfindən hazırlanmış divar kağızları və məsul şəxsin təmsil etdiyi təşkilat (SİMİB) tərəfindən hazırlanmış və üzərində MSŞA Koalisiyasının və həmin təşkilatın loqoları olan ARDNF-nun gəlir və xərclərini özündə əks etdirən divar kağızları seminar keçirilən zalların divarına vurulmuşdur. İştirakçılara layihənin məqsədi, vəzifələri, əhəmiyyətliliyi və layihənin reallaşmasında iştirak edən təşkilatlar (MSŞT, SİMİB, VƏ DİGİB) haqqında məlumat verilib. Onlara Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) yaranma səbəbləri və tarixi, idarə edilməsi prosesləri; MSŞA koalisiyasının yaranma səbəbləri, missiyası, fəaliyyəti və tarixi; MHŞT proseslərində ictimai nəzarətin faydalılığı, ARDNF-nun formalaşması mənbələri və xərclənmə istiqamətləri, ARDNF-nun maliyyələşdirdiyi layihələr və neft gəlirlərinin respublikamızın sosial-iqtisadi vəziyyətinə təsiri mövzularında geniş məlumatı əks etdirən məruzələr təqdim edilib.

**III. İnstutsional fəaliyyət üzrə**

Qrant layihəsində MSŞA İctimai Birliklər Koalisiyasının instutsional fəaliyyətini 2007-ci ildə dəstəkləmək məqsədilə nəzərdə tutulan vəsaitin əsas hissəsini Koalisiya ofisinin icarə haqqı, yeni

texnika və avadanlıqların alınması, işçi heyətin əmək haqqları və ofisdə zəruri iş şəraitinin yaradılması xərcləri əhatə edir. Vəsaitin hesaba köçürülmüş hissəsi qrant layihəsi büdcəsinə uyğun olaraq sərf edilmiş və 31 avqust 2007-ci il tarixədək aşağıdakı işlər yerinə yetirilmişdir:

- Koalisiyanın əvvəlki və yeni ofislərinin icarə haqqları ödənilib. 01 iyul 2007-ci il tarixədək Koalisiyanın yeni ofisə köçürülməsi işi başa çatdırılıb və həmin tarixdən yeni ofis fəaliyyətə başlayıb. Ofisdə işçi heyətin normal fəaliyyəti üçün lazımi şərait yaradılıb. Ofisin imkanlarından Koalisiya üzvləri də istifadə edə bilmələri üçün şərait yaradılıb. Ofisin bir hissəsi xüsusi arakəsməlr vasitəsi ilə Koalisiya üzvlərinin istifadə edə bilmələri üçün ayrılıb.
- Koalisiya ofisi üçün müstəqil telefon xətti çəkilib, mini ATS quraşdırılıb, sürətli (ADSL) internet şəbəkəsi yaradılıb və ofisdəki bütün kompüterlər bu şəbəkəyə qoşulub. Ehtiyacı olan Koalsiyia üzvləri ofisin kompüter və internet imkanlarından da sərbəst istifadə edə bilirlər.
- Texniki təchizat yaxşılaşdırılıb. 4 ədəd yeni kompüter, 1 ədəd 3 funksiyalı (çap, surətçıxarma və skaner) sürətli maşın, 1 ədəd video kamera, 2 ədəd telefon aparatı, komputerlər ucun stol və stullar, 2 ədəd kitab şkafı, 4 ədəd əlavə oturacaq və su dispenseri alınıb.
- Ofis dəftərxana ləvazimatları ilə təchiz edilib.
- Koalisiyanın Ümumi yığıncağı, Şuranın iclasları və digər tədbir və görüşlər təşkil edilib.
- Layihə rəhbərinin və 4 nəfərdən ibarət işçi heyətin aylıq əmək haqları ödənilib.
- *Regional təşkilatlara instutsional yardım* istiqaməti üzrə vəsait büdcədə nəzərdə tutulan istiqamətlərdə xərclənib. Belə ki, MSŞA Koalisiyasının Gəncə şöbəsi fəaliyyəti dövründə 25 məktubla ayrı-ayrı instansiyalara, o cümlədən AR Nazirlər Kabinetinə, AR Ekologiya və Təbii Sərvətlər Nazirliyinə, AR Iqtisadi Inkişaf Nazirliyinə, AR Dövlət Neft şirkətinin prezidentinə, BP şirkətinin prezidentinə, həmçinin Gəncə şəhər, Daşkəsən, Gədəbəy, Xanlar, Samux, Şəmkir, Goranboy, Tovuz, Ağstafa və Qazax rayon IH Başçılarına məktublar ünvanlamış, məktublarda MSŞA Koalisiyasının yaranma tarixindən və təsis olunmasına doğan zərurətdən, EITI prinsiplərindən, Azərbaycan dövlətinin bu prinsiplərin ölkədə inkişaf etdirilməsi baxımından üzərinə götürdüyü öhdəliklərdən, imzalanmış qarşılıqlı memorandumdan, həmçinin şəffaflığın dövləti əhəmiyyətindən bəhs edilmişdir. Həmçinin ümumi dövləti maraqların təmin edilməsi baxımından əməkdaşlıqdan söz açılmışdır. Onların əksəriyyətindən alınan cavab məktublarında əməkdaşlıga razılıq ifadə olunmaqla bərabər rayonların ərazilərində yerləşən təbii ehtiyatların, həmçinin onların istismarı ilə məşğul olan hüquqi və fiziki şəxslərin siyahıları verilmişdir. Bundan başqa Samux rayon IH başçısı cənab V.Hacıyevlə, Samux rayon IH aparatının Sosial Iqtisadi məsələlər üzrə müavini Xalis Ələsgərovla iki görüş keçirilmişdir. Xanlar rayon IH Aparatının Sosial Iqtisadi məsələlər üzrə müavini cənab Rauf Nəsirovla görüş keçirilmiş və MHŞT-yə dair müzakirələr aparılmışdır.

  MSŞA Koalisiyasının Şura üzvü Sabit Bağırovla Gəncə şəhərində «Gəncə yenilikləri» rus dilli qəzetdə Media Forumun keçirilməsi işi təşkil edilmişdir.

  Vahid layihə çərçivəsində MSŞA Koalisiyasının üzvü Ehtiram Əliyevin icra etdiyi layihə üzrə Gəncə KTA tələbə gənclərinin iştirakı ilə görüşün keçirilməsi təşkil olunmuşdur.

  Vahid layihə çərçivəsində MSŞA Koalisiyasının üzvü Asəf Mikayılovun icra etdiyi layihə çərçivəsində MSŞA Koalisiyası Gəncə şöbəsinin əlaqələndiricisi Aslan Vəliyevin iştirakı ilə Tovuz rayonunda dəyirmi masa keçirilmişdir.

Gəncə şəhərində Xanlar, Samux rayonları, həmçinin Gəncə şəhərindən olan QHT nümayəndələri, ictimai fəal şəxslərin və hökumət qurumlarının nümayəndələrinin iştirakı ilə (iştirakçıların sayı 30 nəfər) dəyirmi masa keçirilmişdir.

Samux rayonu Çobanabdallı icmasında, kənd icra nümayəndəsi, kənd bələdiyyəsi və icma üzvlərinin iştirakı ilə (iştirakçıların sayı 28 nəfər) bələdiyyənin idarə binasında dəyirmi masa keçirilmişdir.

Gədəbəy rayonunda rayon IH aparatının, rayon inzibati güc strukturlarının rəhbərlərinin, rayon məhkəməsi sədrinin və rayon idarə müəssisə rəhbərlərinin, həmçinin iş adamlarının iştirakı ilə (iştirakçıların sayı 48 nəfər) görüş keçirilmişdir. Görüşdə MSŞA Koalisiyasının şura üzvü N.Ağayev, Gəncə şöbəsinin şura üzvü Rovşən Novruzov və şöbənin üzvü Cəbrail Məmmədov da, iştirak etmişlər.

Daşkəsən rayonunda rayon IH aparatının, rayon inzibati güc strukturlarının rəhbərlərinin və rayon idarə müəssisə rəhbərlərinin, həmçinin iş adamlarının iştirakı ilə (iştirakçıların sayı 51 nəfər) görüş keçirilmişdir. Görüşdə MSŞA Koalisiyası Gəncə şöbəsinin şura üzvü Irşad Abbasov, şöbənin üzvləri Cəbrail Məmmədov və Ramin Surxayev də iştirak etmişlər.

Hal-hazırda şöbə növbəti görüşləri keçirmək üçün Qazax rayonuna və Goranboy rayonuna səfərlər etməyi planlaşdırır.

Gəncə şöbəsinin əlaqələndiricisi Aslan Vəliyev MSŞA Koalisiyasının şura iclaslarında davamlı iştirak edir və hazırda Dağ-Mədən sənayesi ilə məşğul olan şirkətlərin Memoranduma cəlb olunması istiqamətində iş aparır.

Bundan başqa bölgədə yerləşən digər rayonlarda da görüşlərin, məlumatlandırma və maarifləndirimə işlərinin aparılması prioritet hesab edilir.

- *Vebsaytın işinin təmin edilməsi və zənginləşdirilməsi* istiqaməti üzrə fəaliyyətə Etibar Axundov məsuldur. Ən əvvəl vebsayt tam analiz edilib və birinci növbədə və perspektivdə görüləcək işlər müəyyənləşdirilib. Birinci növbədə Azərbaycan bölməsində tam, ingilis dili bölməsində isə əsasən struktur dəyişiklikləri aparılıb. Azərbaycan bölməsi tam formalaşdırılıb və fəaliyyət göstərir. Koalisiya üzvlərinin CV-ləri (Azərbaycan və ingilis variantlarında) üçün uyğun kataloq yaradılıb. İngilis dilində struktur dəyişikliklərinin ilin sonunadək başa çatdırılması nəzərdə tutulur.

Azərbaycan və İngilis bölmələrində HTML və PHP fayllarının formatlaşdırılması işləri tamamlanıb. Koalisiya bülleteninin indiyə qədər Azərbaycan dilində 4, ingilis dilində isə 2 sayı sayta yerləşdirilib.

Səhifə yenilikləri ilə bağlı baş səhifədə Azərbaycan bölməsində 7, ingilis bölməsində 3 yeni sektor yaradılıb. Bu sektorlar üzrə məlumatlar Koalisiyanın ümumi işini və ümumilikdə Azərbaycanda Şəffaflıq Təşəbbüsünü tam işıqlandırır.

Forum açılıb və tam fəaliyyət göstərir. Forumun Koalisiyanın işini nə qədər optimal və operativ etmək imkanları ilə bağlı məqalə hazırlanır. Məqalədə forumda işləmək qaydaları göstəriləcək. Məqalə hazır olan kimi E-Mail vasitəsilə koalisiya üzvlərinə xəbər veriləcək.

Vebsayt Koalisiyadan alınan məlumatlarla daimi olaraq zənginləşdirilir.

- *Koalisiya jurnalının nəşri* istiqaməti üzrə İlham Şabanov məsuldur. O, jurnalın Baş redaktorudur. Jurnalın Redaksiya Heyəti, adı və prioritet mövzuları müəyyənləşdirilib. Jurnalın ilk sayı sentyabrın 28-də nəşr edilib.

Koalisiyanın bu fəaliyyətinin nəticəsi olaraq onun populyarlığı və nüfuzu xeyli artıb, üzvlərinin sayı hazırda 100-ü keçmışdır. Üzvlüyə 20-dən artıq yeni müraciət daxil olub. Hazırda Koalisiya özünün 10-cu Ümumi yığıncağını (oktyabrın 20-də) keçirməyə hazırlaşır və üçtərəfli Anlaşma Memorandumundan irəli gələn öhdəliklərini yerinə yetirməklə bərabər, Vahid Layihənin ikinci hissəsini həyata keçirmək üzərində çalışır.